**Unutsaq unudularıq**

# İsa bəy Abakarov – Azərbaycanın Pestalotsisi



***A**zərbaycanın maarifçilik tarixinin ən görkəmli nümayəndələrindən biri olan İsa bəy Abakarov 1860-cı ildə keçmiş Zaqatala dairəsinin, indiki Qax rayonunun yaşıllıqlar qoynundakı Güllük kəndində dünyaya göz açmışdır. İllər ötəndən sonra isə Azərbaycan balalarına təlim-tərbiyə verməyi, qəlblərində nur çırağı yandırmağı özünə həyat amalı seçmişdir.*

*1884-cü ildə Qori Seminariyasını bitirdikdən sonra Qazax qəzasının İkinci Şıxlı kəndinə göndərilmiş və orada açdığı ilk ibtidai məktəbin müdiri olmuşdur. Məktəbin məzunlarından 15 nəfər onun bilavasitə tövsiyəsi və köməyi ilə Qori Seminariyasına qəbul edilmişdir. Xalq şairi Osman Sarıvəlli, Xalq yazıçısı Mehdi Hüseyn bu məktəbdə oxumuşlar. Xalq şairi Səməd Vurğun 1924-cü ildə həmin məktəbin müdiri olmuşdur.*

*İsa bəy 1897-ci ildən Batum vilayətinin Çürüksu məktəbində, sonralar Ağdaşda müəllimlik etmişdir.*

Sovet dövründə – 1920-ci ildən Zaqatala Sənaye və Kənd Təsərrüfatı Texnikumunda dərs demişdir. O, burada təkcə elm öyrətməklə kifayətlənmir, həm də gənclərdə müxtəlif peşələrə (bağbanlıq, xarratlıq və sair) maraq oyadırdı. Akademik İmam Mustafayev də vaxtilə onun tələbələrindən biri olmuşdur.

İ.Abakarov Qazax qəzasında işlədiyi illərdə yay tətilində Avropaya səyahətə çıxmışdır. Özünün söylədiyinə görə, məşhur rus yazıçısı Lev Tolstoyla məktublaşmış və görüşmüşdür. İsveçrəyə səyahəti zamanı isə V.İ.Leninlə də tanış olmuşdur.

Bizə verilən məlumata görə, İsa bəy görkəmli yazıçı, dramaturq Əbdürrəhim bəy Haqverdiyevlə də tanış olmuşdur. İmam Mustafayev “Azərbaycan məktəbi” jurnalında (1989-cu il, №1) dərc olunmuş “Səmimi insan, unudulmaz müəllim” məqaləsində yazırdı: “Saçı-saqqalı ağarmış, nurani, qocaman bir müəllimimiz vardı – İsa bəy Abakarov. O, texnikumun həyətində işçi-qulluqçuların yaşadığı binada birotaqlı mənzildə qaldığı üçün dərsdən sonra da tələbələrlə bir yerdə olardı və onları müxtəlif dərnəklərə cəlb edərdi. İ.Abakarov hərtərəfli inkişaf etmiş, çox mülayim xasiyyətli bir insan olduğu üçün bütün tələbələr onu öz ataları, babaları kimi sevər, hörmətini saxlayardılar. Odur ki, təşkil etdiyi dərnəklərə həvəslə gədərdik.

Texnikumun sənət məktəbindən qalmış çox gözəl dülgərlik, çilingərlik emalatxanaları vardı. Orada bizə taxtadan, ağacdan, dəmirdən müxtəlif əşyalar düzəltməyi öyrədirdilər. Eyni zamanda, İsa bəy bizə fotoşəkil çəkməyi, kitab cildləməyi, bayram fişəngləri düzəltməyi və başqa sənətləri öyrədərdi. İstirahət günləri bizi şəhər ətrafında olan dağlara və meşələrə aparardı. Bir sözlə, bu müəllim hamıdan çox qayğıkeşlik göstərər, tələbələrin təlim və tərbiyəsində əsas rol oynayardı.

İsa bəy müəyyən təmayüldə fərqlənən tələbələrə musiqi alətləri, rəsm və cizgi ləvazimatları alıb verərdi. İ.Məmmədova skripka, Ağazadəyə isə “Seys” markalı böyük kameralı fotoaparat bağışlamışdı.

İsa bəy Abakarov tələbələrə elmi biliklər aşılamaqla bərabər, onların mədəni imkişafına da xüsusi diqqət verirdi. Müəllim Əli Abbasov ilə birlikdə texnikumda dram dərnəyi təşkil etmişdilər. “Ölülər”, “İblis” kimi əsərlərin tamaşasında çıxış edərdik. Hətta, kiçik orkestr də yaratmışdılar. Lakin musiqi müəllimi (kapelmeyster) əsəbi olduğu və türk dilini bilmədiyi üçün bu orkestr müvəffəqiyyət qazanmadı. Tələbələr özləri tar və kamança çalmağı öyrənib, yaxşı da çıxış edirdilər...

Bütün varlığı ilə xalqı maarifin ziyalı yoluna çıxarmağa cəhd göstərən, bu yolda bütün ömrünü sərf edən bu fədakar müəllimin pedaqoji fəaliyyəti təəssüf ki, tədqiqatçıların diqqətindən yayınmışdır. Bu boşluğu doldurmaq, İ.Abakarovun çoxcəhətli pedaqoji fəaliyyətini, hərtərəfli tədqiq edib oxuculara çatdırmaq vacibdir.”

Təəssüf ki, akademikin sevimli müəllimi barədəki arzusu elə arzu olaraq qaldı, onun indiki nəsillərə də örnək ola biləcək pedaqoji fəaliyyətini tədqiq etmək heç kimin yadına düşmədi.

“Azərbaycan” qəzetinin 2013-cü il 8 sentyabr tarixli nömrəsində Əməkdar jurnalist Əhməd İsayevin “Adı dillərdə gəzirdi” sərlövhəli məqaləsi dərc olunmuşdur.

İsa bəy ömrünün son illərini doğma Güllük kəndində yaşamışdır. Təəssüf ki, onun haqqında çox az məlumat var. Deyilənə görə, İsa bəyin zəngin arxivi olmuşdur. Lakin kənddə aqronom işləyən qardaşı oğlu Əbdül həbs ediləndə (o, söhbət əsnasında ilk vaxtlar alman faşistlərinin güclü olduğunu demiş, bunu şişirdib “lazımi yerə” çatdırmışdılar) ailə üzvləri evdə şübhə doğura biləcək hər şeyi, o cümlədən, İsa bəyin bütün arxivini təndirdə yandırmışlar.

Görkəmli maarifçi-demokrat, ədəbiyyatşünas Firidun bəy Köçərli (1863–1920) deyirdi ki, müəllim məktəbin canı və xalqın çırağıdır. O, öz peşəsini sevsə, şagirdlərini övladı kimi istəsə, onların təlim-tərbiyəsinə can yandırsa, əhalinin gözünü açmağa və xeyir verən biliklərlə cəhalət pərdəsini yırtmağa çalışsa, şübhəsiz ki, böyük möcüzələr göstərər və hamının rəğbətini, məhəbbətini qazanar. “Hər bir şeyə həyat verən, hər bir şeyi gözəl, məqbul və nurani edən məhəbbətdir!” deyən Firudin bəy ürək ağrısı ilə yazırdı: “Heyfa ki, bu ali və pakizə hiss, bu yandırıcı ataş bizim qəlbimizdə yoxdur, heyfa ki, nə ev tərbiyəsində, nə məktəblərdə və məscidlərdə və nə də camaatımızın içində məhəbbət atəşini bizim ürəyimizdə yandıran olmayıbdır.

Müəllimin məktəbin canı olduğunu və məhəbbət ilə çox işlər açdığını əcnəbi qövm və tayfaların içində görürük. Bizim müsəlmanlar dəxi belə həqiqi millət xadimlərindən məhrum deyillər. Kənd müəllimlərinin içində İsa bəy Abakarov, Əhməd ağa Mustafayev kimi bir neçə möhtərəm şəxslər var ki, həqiqətdə millət xadimi olub, cani-dildən təlim və tərbiyə işlərinə ömürlərini sərf ediblər. Bunlardan hər birisi iyirmi ildən ziyadədir ki, müəllimlik etməkdədir. Bunlar qulluq sarıdan artıq bir tərəqqi etməyiblərsə və tərəqqi etmək qeydinə dəxi düşməyiblərsə də, camaatın məhəbbətinə şayəstə (layiq) olublar. Hansı kənddə müəllimlik ediblərsə, orada mərifət çırağını yandırıb, əhalinin gözlərini açıb, mənəvi tərəqqilərinə bais olublar. İsa bəyin təhti-tərbiyəsindən yüzlərcə rəiyyət balaları çıxıb, kamali-təhsil edib, çörək sahibi olubdur. İsa bəy çox fəqir şəxslərin övladına atalıq edib, azacıq məvacibindən onlara xörək və puşak (paltar) verib oxudubdur. İmtahan mövsümündə onları öz xərci ilə Tiflisə, Gəncəyə, Qoriyə göndərib və çox vaxt özü aparıb bəzisini sənət məktəbinə, kimisini feldşer şkolasına (məktəbinə), kimisini seminariyaya və hətta bir neçəsini gimnaziyaya qoyubdur.

İsa bəyin haqqı bizim üstümüzdə çoxdur. İsa bəy bizim Pestalotsimiz (1746–1827; İsveçrə pedaqoqu, ibtidai təhsil didaktikasının yaradıcılarından biri) məramındadır. Və lakin belələri çox azdır, beş-on nəfər ancaq tapılar. Yerdə qalanları öz şüğllərinə (işlərinə) soyuyubdur, ürəklərində olan ataş sönübdür və hər şeyə həyat verən məhəbbət çeşməsi quruyubdur” (Seçilmiş əsərləri, Bakı, 1993, səh. 199-200).

Görkəmli ədəbiyyatşünas, professor Abbas Zamanovun A.Divanbəyoğlunun (Abdulla bəy Vəli oğlu Sübhanverdixanov) “Can yanğısı” romanına yazdığı müqəddimədəki sözlər F.Köçərlinin dediklərini bir daha təsdiqləyir: “...Divanbəyoğlu XIX əsrin sonlarında Azərbaycan kəndinə maarifin ilk işığını aparan İsa ağa Abakarovun köməyi ilə hazırlanıb Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuşdur”.

1920-ci illərdə Zaqatala Texnikumunda İsa bəylə bir yerdə işləmiş, sonralar indiki BDU-da Genetika və təkamül kafedrasının yaradıcısı olan professor, Əməkdar elm xadimi Mirəli Axundov xatirələrində yazırdı: “İsa bəy müəllimin adını ilk dəfə 1923-cü ildə Bakı Darülmüəllimində oxuyarkən məşhur maarifçi Sultanməcid Qənizadədən eşitdim. Elimizin görkəmli pedaqoqlarından söz düşəndə dedi ki, Azərbaycanda İsa bəy Abakarov adlı məşhur bir müəllim var. Öz işinin kamil bilicisidir.... Bakı Darülmüəllimini bitirib öz xahişimlə Zaqatalaya getdim... İsa bəy Abakarovla burada tanış oldum...Mən onun şəxsində, sözün əsl mənasında, həqiqi bir pedaqoq gördüm. O, klassik bir pedaqoq idi. Bütün hərəkətlərinə və davranışına, rus dilinin tədrisi prosesindəki məharətinə aşiq olmuşdum. Mən ondan müəllimliyin ən incə sirlərini öyrəndim, özümü ona oxşatmağa çalışdım... O, ibtidai təhsil üçün lazım olan fənləri – riyaziyyat, təbiət, coğrafiya və s. kamil surətdə bilirdi... Mənim üçün o, canlı coğrafiya idi.”

Qazax Müəllimlər Seminariyasının (1918-ci ildə Firidun bəy Köçərlinin təşəbbüsü ilə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi əsasında yaradılmışdı) məzunu, Əməkdar müəllim Əhməd Əhmədov da İsa bəyi ehtiramla xatırlayırdı: “ İsa bəy kəndlilərə ərizə yazan, məsləhət verən, şagirdləri ilə vicdanlı rəftar edən və onları sevən yüksək əqidəli humanist bir müəllim və vətənpərvər olmuşdur. Valideynlər uşaqlarını məmnuniyyətlə İsa bəyə oxutmağa verərdilər. Onun kəskin və ciddi xarakterindən çəkinən dindarlar İsa bəylə münaqişəyə o qədər də həvəslə girişməzdilər” (F.Ə.Seyidov, Azərbaycan pedaqoji fikir tarixindən səhifələr, III kitab, Bakı, 2002, səh. 290).

İ.Abakarov doğma kəndi Güllükdə, məscidin yaxınlığında dəfn edilmişdir.

Qax şəhərində onun adına küçə var.



**P.S. Mən qəzet vasitəsilə əlaqədar qurumlardan, Təhsil Nazirliyindən Qax rayonunun məktəblərindən birinə İsa bəy Abakarovun adının verilməsini xahiş edirəm.**

***Vaqif MUSAYEV,***
***Əməkdar jurnalist***